# Dünyanı verək uşaqlara

**Göyçay Rayon Mədəniyyət və Turizm Şöbəsinin tabeliyində 50 kitabxana fəaliyyət göstərir. Bu kitabxanalarda tez-tez günün aktual mövzularına həsr olunmuş mədəni-kütləvi tədbirlər keçirilir.**

**Belə tədbirlərdən biri də bu günlərdə rayon məktəblilərinin iştirakı ilə MKS-da keçirilmişdir. Gənc nəslin dünyagörüşünün formalaşmasına, gənclərdə kitaba olan marağın daha da artırılmasına yönəldilən "Dünyanı verək uşaqlara" adlı bu tədbir öz dolğunluğu ilə yadda qalmışdır.**

Kitabxananın foyesində təşkil edilmiş kitab sərgisi və dahilərin kitab haqqında söylədiyi müdrik kəlamlarla tanışlıqdan sonra oxu zalında təşkil olunan tədbiri giriş sözü ilə açan kitabxananın direktoru R.Balayeva qonaqları salamladıqdan sonra mövzu haqqında iştirakçılara məlumat verdi.

Mədəniyyət və Turizm Şöbəsinin müdiri S. Şükürov ulu öndər Heydər Əliyevin doğum gününün 88 illili ilə bağlı keçirilən silsilə tədbirlərdən təşkil olunan kitab bayramından söhbət açdı.

**Kitabxananın işçiləri Sahilə Əliyeva, Ziyafət Əsgərova, Şövqiyyə Əliyeva, Nərminə Qəhrəmanova və Səlmi Şıxəliyevanın işgüzarlığı ilə ərsəyə gələn tədbir sonda rayon 3 saylı orta məktəbi şagirdlərinin iştirakı ilə hazırlanan gözəl kompazisiya ilə başa çatdı.**

● **Nəriman MƏLİKOV,**
*Göyçay Rayon Mədəniyyət və Turizm şöbəsinin aparıcı mütəxəssisi*